# Yeni əməkdaşlıq mühiti formalaşır

## İran-Zəngilan körpüsünün böyük siyasi və iqtisadi əhəmiyyəti var

Oktyabrın 6-da Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında yeni avtomobil körpüsünün və sərhəd-gömrük infrastrukturunun inşasına başlanılıb.

Zəngilan körpüsünün tikintisi "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" çərçivəsində reallaşdırılır. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında quru yolunu bərpa edən bu körpü ölkəmizin yeni regional uğuru hesab edilir.

Bununla bağlı "Azərbaycan"a danışan Milli Məclisin deputatı Rüfət Quliyev deyib ki, ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında quru nəqliyyat əlaqəsinin yaradılması üçün inşa ediləcək Zəngilan körpüsü siyasi və iqtisadi əhəmiyyətə malikdir. Bu yol vasitəsilə yükdaşımaların həcminin artması nəticəsində Azərbaycan kifayət qədər gəlir götürəcək. Həmçinin nəzərə almaq lazımdır ki, bu yeni yol regionun ümumi maraqları və inkişafı üçün əlverişli imkandır.

Deputatın sözlərinə görə, Naxçıvanda fəaliyyət göstərənlər bu optimal yol vasitəsilə Azərbaycanın əsas hissəsi ilə daha sərfəli və operativ şəkildə əlaqə yarada biləcəklər.

"Dövlətimizin belə yeniliklər üçün daha çox imkanı var. Bu, iqtisadi qüdrətimizi artırmaqla yanaşı, qonşu ölkələrin, o cümlədən İranın maraqlarını təmin edəcək və bizim qonşuluq əlaqələrimizi möhkəmləndirəcək. Nəticədə regionda yeni əməkdaşlıq mühiti formalaşacaq", - deyə R.Quliyev bildirib.



Müsahibimiz Zəngilan körpüsünün Naxçıvan Muxtar Respublikasına gediş-gəlişin asanlaşdırılmasına xidmət göstərəcəyini də vurğulayıb. Avtomobil körpüsünün gündəlik qəbul edə biləcəyi mindən artıq yük-nəqliyyat vasitələrinin sayı da bu yolun səmərəli olacağını təsdiq edir.

Rüfət Quliyev onu da qeyd edib ki, bu layihə İranın Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu göstərdi. Ermənistan da bunlardan dərs almalı, sülhdə maraqlı olmalıdır. Yalnız Ermənistanla sülh müqaviləsi imzalanacağı halda bu ölkə regionda reallaşdırılan beynəlxalq əhəmiyyətli layihələrin iştirakçısına çevrilə bilər.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 10 oktyabr.- S.7.